## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

### 2024-cü il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir

**1.** Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən *(magistr dissertasiyasını müdafiə etməklə)*, yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları sənəd verə bilərlər.

**2.** Elmlər doktoru proqramı üzrə təhsil üçün seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

**3.** Dissertantlıq yolu ilə fəlsəfə doktoru proqramına qəbul olunmaq üçün ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən *(magistr dissertasiyasını müdafiə etməklə)*, yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müvəffəqiyyətləri, *əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı iki il elmi-pedaqoji stajı olan* elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər. Dissertanturada hazırlıq UNEC-də işləməyən şəxslər üçün ödənişlidir.

**4.** Doktorantura və ya dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilməlidir:
- kadrların şəxsi qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə)
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi əsərlərin siyahısı *(elmi əsərlərin nəşr edildiyi jurnaldan çıxarılan surətləri əlavə edilməklə)*. Elmi əsərlər iddiaçının seçdiyi ixtisasa uyğun olmalıdır. Elmi əsərləri olmayanlar seçdikləri ixtisasa aid olan mövzu üzrə referat təqdim etməlidirlər (referatın məzmununa və tərtibinə dair tələbləri *https://unec.edu.az/application/uploads/2015/02/Referat-n-yaz-lmas-nat-l-bl-r.pdf* səhifəsindən əldə etmək olar);
- ali təhsil haqqında diplomların (diplomun) və qiymət cədvəllərinin (qiymət cədvəlinin) notarial qaydada təsdiq olunmuş surətləri (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil haqqında sənədin tanınması barədə Elm və Təhsil Nazirliyinin şəhadətnaməsi);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- fəlsəfə doktoru (elmlər namizədi) diplomunun notarial qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün).

**5.** Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər 2024-cü ilin iyun ayında "Xarici dil" fənnindən Dövlət İmtahan Mərkəzində imtahan verəcəklər ("Xarici dil" imtahanının 09.06.2024-cü il tarixində keçirilməsi nəzərdə tutulmuşdur). "Xarici dil" fənnindən keçid balını toplayan şəxslər "Fəlsəfə" fənni üzrə imtahana buraxılırlar. Fəlsəfə fənni üzrə imtahanda "məqbul" qiymət almış şəxslər "İxtisas" fənni üzrə imtahana buraxılırlar. Fəlsəfə fənni üzrə imtahanın 2, 3 və 4 sentyabr 2024-cü il tarixlərində, "İxtisas" fənnindən imtahanın isə 9, 10 və 11 sentyabr 2024-cü il tarixlərində keçirilməsi nəzərdə tutulur.

**6.** Doktorantura və ya dissertanturaya sənədlərin təqdim olunması 16 aprel - 15 may 2024-cü il tarixlərində www.portal.edu.az platforması üzərindən aparılacaqdır. Sənədlər elektron formada (pdf) yüklənməlidir.

**7.** Suallar yarandığı təqdirdə UNEC-in Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin Doktorantura şöbəsinə müraciət edə bilərsiniz.

**Ünvan:** *Bakı şəh., Abbas Səhhət küçəsi 45A, UNEC-in IV tədris binası, Doktorantura şöbəsi (otaq 104).*

**Telefon:** *012-440-57-49.*

## Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 2024-cü il üçün doktorantura və dissertanturaya
# Qəbul Planı

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | Dissertantura |
| | | Cəmi | Dövlət ifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | əyani | qiyabi | | | qiyabi | |
| **Azərbaycan Dövlət İqtisad Universiteti** | | | | | | | | |
| 2203.01 | Elektronika | 1 | | 1 | | | | |
| 3309.01 | Qida məhsullarının texnologiyası | 2 | | 2 | 1 | | | |
| 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 1 | 1 | | 1 | | | |
| 3333.01 | İstehsalın təşkili (sahələr üzrə) | 1 | | 1 | | | | |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | 3 | 1 | 2 | | | | 1 (LDU üçün məqsədli yer) |
| 5302.01 | Ekonometriya-iqtisadi statistika | 4 | 2 | 2 | | | | |
| 5303.01 | Mühasibat uçotu | 3 | 1 | 2 | | | | |
| 5304.01 | İqtisadi fəaliyyətin növləri | 1 | | 1 | | | | |
| 5307.01 | İqtisadi nəzəriyyə | 2 | 1 | 1 | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 5 | 2 | 3 | 4 (ADİU Zaqatala filialı üçün 3 məqsədli yer) | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 4 | 2 | 2 | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | 5 | 2 | 3 | 3 (ADİU Zaqatala filialı üçün 2 məqsədli yer) | 1 | 1 | |
| | Cəmi: | 32 | 12 | 20 | 9 | 1 | 1 | 1 |

**** Qəbul planında dövlət sifarişli yerlərin sayı qəbul imtahanları bitdikdən sonra Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən ediləcək. UNEC əməkdaşı olmayan şəxslər üçün dissertantura təhsili ödənişli əsaslarla aparılır.*

## Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi

Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na əsasən Milli Aerokosmik Agentliyi 2024-cü il üçün aşağıdakı ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edir.

**Qəbul planı:**

Fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya sənədlərin qəbulu 16 aprel - 15 may 2024-cü il tarixləri arasında "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcək. Sənəd təqdim etmək istəyən şəxslər Təhsil Nazirliyinin portal.edu.az saytında qeydiyyatdan keçməlidirlər.

*Tel: (012) 562-96-07*
*https://nasa.az*

**Qəbul planı**

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorant hazırlığı üzrə qəbul planı | | | | | Dissertant hazırlığı üzrə qəbul planı | | | Doktorant hazırlığı üzrə qəbul planı | | | | | Dissertant hazırlığı üzrə qəbul planı | | |
| | | cəmi | o cümlədən Büdcə hesabına | | o cümlədən Ödənişli əsaslarla | | cəmi | o cümlədən Büdcə hesabına | o cümlədən Ödənişli əsaslarla | cəmi | o cümlədən Büdcə hesabına | | o cümlədən Ödənişli əsaslarla | | cəmi | o cümlədən Büdcə hesabına | o cümlədən Ödənişli əsaslarla |
| | | | Əyani | Qiyabi | Əyani | Qiyabi | | | | | Əyani | Qiyabi | Əyani | Qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 2307.01 | Fiziki kimya | 1 | | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 2426.01 | Ekologiya | 5 | 3 | 2 | | | 2 | 2 | | | | | | | 2 | 2 | |
| 3310.01 | Sənaye texnologiyası | 3 | 2 | 1 | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 3311.01 | Cihazqayırma texnologiyası | 2 | 1 | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 3313.01 | Maşınqayırma texnologiyası | 2 | 1 | 1 | | | | | | 1 | | 1 | | | | | |
| 3322.01 | Enerji texnologiyası | 3 | 2 | 1 | | | | | | | | | | | 1 | 1 | |
| 3324.02 | Yer kürəsinin aerokosmik tədqiqatları, fotoqrammetriya | 3 | 2 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| 3324.03 | Uçan aparatların layihələndirilməsi, konstruksiyası və istehsalı | 3 | 2 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| 3324.07 | Məsafədən aerokosmik tədqiqatlar | 4 | 2 | 2 | | | 2 | 2 | | | | | | | 2 | 2 | |
| 3325.02 | Radiotexnika, radionaviqasiya, radiolokasiya, televiziya sistemləri | 3 | 1 | 2 | | | | | | 1 | | 1 | | | | | |
| 3328.01 | Xüsusi əməliyyatlar texnologiyası | 4 | 2 | 2 | | | | | | | | | | | 1 | 1 | |
| 3337.01 | İnformasiya-ölçmə və idarəetmə sistemləri | 3 | 2 | 1 | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | 3 | 2 | 1 | | | 1 | 1 | | | | | | | | | |
| 3361.01 | Bərk cism elektronikası, radioelektron komponentləri, mikro və nanoelektronika | 3 | 2 | 1 | | | 1 | 1 | | | | | | | 1 | 1 | |
| | Yekun cəmi | 42 | 24 | 18 | | | 10 | 10 | | 4 | | 4 | | | 9 | 9 | |

# Nəqliyyat və turizm sektorlarının nümayəndələri arasında görüş

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) və Dövlət Turizm Agentliyinin (DTA) birgə təşkilatçılığı ilə nəqliyyat və turizm sektorlarının nümayəndələri ilə görüş keçirilib. RİNN-nin mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin iştirakı ilə təşkil olunan tədbirdə "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi və Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının rəhbər şəxsləri təmsil olunublar.**

Nazir Rəşad Nəbiyev nəqliyyat sistemini turistlər üçün daha əlverişli edən əlçatanlıq, təhlükəsizlik, davamlılıq kimi qlobal səviyyədə tanınan xüsusiyyətlər üzrə ölkəmizdə görülmüş və planlaşdırılan işlər barədə danışıb. Sədr Fuad Nağıyev daxili və xarici turizm sahəsinin inkişafının nəqliyyat sistemi və infrastrukturu ilə birbaşa əlaqəli olduğunu, mövcud sahələrin sinxron inkişafının vacibliyini vurğulayıb.

Görüşdə səmərəli nəqliyyat sisteminin turizmin inkişafında rolu, hava və yerüstü nəqliyyat (dəmiryolu və avtomobil nəqliyyatı) sahəsində şirkətləri maraqlandıran məsələlər və dövlət-özəl tərəfdaşlığının əhəmiyyəti müzakirə olunub.

**"Respublika".**

# Əlilliyi olan şəxslərə evlərində reabilitasiya xidmətləri

**Bu ilin yanvar-mart aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi yaşayış yerini tərk etməkdə çətinlik çəkən 500-dək əlilliyi olan şəxsi evlərində (səyyar) reabilitasiya xidmətləri ilə təmin edib. Onlara 1220 sayda reabilitasiya xidməti göstərilib.**

Həmin səyyar xidmətlərdən yararlanmaq istəyən əlilliyi olan şəxs (və ya onun qanuni nümayəndəsi) Nazirliyin "142" Çağrı mərkəzinə, eləcə də DOST mərkəzləri və ya ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət edir. Müraciətə əsasən Agentliyin müvafiq reabilitasiya mərkəzinin həkim və psixoloqlarından ibarət səyyar briqadası əlilliyi şəxsin yaşadığı ünvana gedərək, onun ilkin müayinə və qiymətləndirməsini aparır. Daha sonra əlilliyi olan şəxslə bağlı fərdi plan tərtib olunaraq bu plan əsasında ona müəyyən olunmuş müddət ərzində həkim və psixoloq müayinəsi, loqoped seansı, müalicəvi masaj, müalicəvi bədən tərbiyəsi, əmək terapiyası və s. üzrə reabilitasiya xidmətləri göstərilir.

# Beynəlxalq Telekommunikasiya İttifaqı ölkəmizdə sosial sahədə e-xidmətləri qabaqcıl rəqəmsal təcrübələr kimi təqdim edib

**Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) "Partner2Connect Digital Coalition" platformasının rəsmi internet səhifəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin (DOST RİM) fəaliyyəti və övladlığagötürmə üzrə e-xidmətləri qabaqcıl rəqəmsal təcrübələr kimi təqdim edilib.**

Platformada indiyədək dünyanın 142 ölkəsinin 434 qurumuna aid 895 uğurlu rəqəmsal layihə barədə qlobal miqyasda




məlumatlar paylaşılıb. Saytda dərc olunan innovativ nümunələr siyahısında DOST RİM-in fəaliyyəti də yer alıb. Mərkəz tərəfindən elektronlaşdırılmış xidmətlərin sayı, həmçinin yaradılmış proaktiv xidmət mexanizmləri barədə məlumatlar diqqətə çatdırılır. Platformada paylaşılan digər bir məlumatda da Nazirliyin "Övladlığagötürmə" altsistemindən bəhs olunur. Ölkəmizdə övladlığagötürmə sahəsində xidmətlərin rəqəmsal texnologiyalar üzərindən qurularaq obyektiv, şəffaf və çevik şəkildə həyata keçirildiyi vurğulanır.

2021-ci ildə yaradılan "Partner2Connect Digital Coalition" platformasında müxtəlif dövlət və özəl təşkilatlara dəstək məqsədilə dünyanın qabaqcıl rəqəmsal təcrübələri, yeni ideya, bilik və alətləri paylaşılır.

**"Respublika".**

# DÜNYA BUGÜN
## Xəbərlər

### ABŞ SENATINDA UKRAYNAYA VƏ İSRAİLƏ YARDIMLA BAĞLI KONSENSUS ƏLDƏ EDİLİB

ABŞ Senatı Ukrayna və İsrailə yardımla bağlı konsensus əldə edib. "Trend" agentliyinin verdiyi xəbərə görə, bu barədə Senatdakı çoxluğun lideri, demokrat Çak Şumer mətbuat konfransında bildirib.

Senatorun sözlərinə görə, konsensus ABŞ prezidenti Cozef Bayden və Konqres liderləri arasında bazar günü baş tutan telefon danışığı zamanı əldə olunub.

Bununla yanaşı, Çak Şumer qeyd edib ki, İsrailə və Ukraynaya yardım göndərməyin ən yaxşı yolu Nümayəndələr Palatasının Senat tərəfindən təsdiqlənmiş milli təhlükəsizlik haqqında əlavə qanunun qəbul edilməsidir.

"İsrailin raket əleyhinə müdafiə və pilotsuz uçuş aparatları ilə mübarizə sistemini bərpa etməsinə yardımın ən yaxşı yolu bu əlavənin dərhal qəbul olunmasıdır", - deyə Çak Şumar vurğulayıb.

### GÜRCÜSTAN PREZİDENTİ: "XARİCİ AGENTLƏR QANUNU" Aİ MƏQSƏDLƏRİ ÜÇÜN SƏRFƏLİ DEYİL

Gürcüstan prezidenti Salome Zurabişvili baş nazir İrakli Kobaxidzenin ABŞ və Avropa İttifaqı (Aİ) ölkələrin səfirlərini "xarici agentlər haqqında qanun"la bağlı ictimai müzakirəyə dəvət edən bəyanatına münasibət bildirib. "Teleqraf.com"un xəbərinə görə, prezident Kobaxidze hökumətinin bu təşəbbüsünün Aİ-yə inteqrasiya prosesinə zərər verə biləcəyini diqqətə çatdırıb.

Zurabişvili qeyd edib ki, Berlində Almaniya kansleri Olaf Şoltsla görüş zamanı bu layihənin Aİ ilə heç bir əlaqəsinin olmadığı dilə gətirilib.

"Artıq Berlində baş nazirlər arasında müzakirələr aparılıb. Bu qanun Avropa qanunu deyil. Bunun parlamentin müzakirəsinə qaytarılması Avropa məqsədləri üçün sərfəli deyil", - deyə Gürcüstan prezidenti vurğulayıb.

Xatırladaq ki, ötən ilin martında ilk dəfə parlamentin müzakirəsinə çıxarılan qanun layihəsi Gürcüstanda kütləvi etirazlara səbəb olmuşdu. ABŞ və Aİ-nin də sərt təpkisi ilə qarşılanan layihə bundan sonra geri götürülmüşdü. Qanun bir neçə gün əvvəl yenidən parlamentə təqdim edilib.

### İRANIN İSRAİLƏ HÜCUMU AVİAUÇUŞLARDA CİDDİ PROBLEMLƏRƏ SƏBƏB OLUB

İranın İsrailə hücumundan sonra iki gün ərzində azı 12 böyük aviaşirkət uçuşları ləğv etməli və ya marşrutu dəyişdirməli olub. Bu barədə "Röyters" agentliyi məlumat yayıb. Bildirilib ki, hava nəqliyyatı və hava limanları ilə işləyən "OPSFROUP" konsaltinq şirkətinin yaradıcısı Mark Zi uçuşlarla bağlı fasilələrin miqyasını 2001-ci il 11 sentyabr terror aktının nəticələri ilə müqayisə edib.

"O vaxtdan bəri bizdə elə bir vəziyyət olmayıb ki, bu sayda müxtəlif hava məkanları belə tez bağlansın. Bu, xaos yaradır", - deyə Mark Zi bildirib.

Məlumata görə, İran üzərindəki hava məkanından Avropa və Asiya arasında uçan təyyarələr istifadə edir. O, uçuşlarla bağlı fasilələrin daha bir neçə gün davam edəcəyini düşünür.

Xatırladaq ki, aprelin 14-nə keçən gecə Yaxın Şərqdə eskalasiya ilə əlaqədar İsrail, İran, İordaniya, İraq və Livan hava məkanını bağlayıb.

### BÖYÜK BRİTANİYA QANUNSUZ MİQRANTLARI ERMƏNİSTANA GÖNDƏRMƏK NİYYƏTİNDƏDİR

Böyük Britaniya krallıqdan qovulan qanunsuz miqrantları qəbul edə biləcək dörd ölkə ilə danışıqlara başlayıb. "Report" agentliyinin xəbərinə görə, bu barədə "The Times" qəzeti əldə etdiyi diplomatik sənədlərə istinadən bildirib. Bu məsələ ilə bağlı Ermənistan, Botsvana, Kot-d'İvuar və Kosta-Rika ilə dialoq davam edir.

Nəşrin məlumatına görə, London məhz bu dörd ölkə ilə Böyük Britaniya və Ruanda arasında əvvəllər əldə edilmiş razılaşmanın analoqunu bağlamağı gözləyir. Braziliya, Kolumbiya, Paraqvay, Peru və Ekvadorla mümkün əməkdaşlıq məsələsi də qaldırılıb, lakin Krallığın XİN-i hesab edir ki, bu ölkələrin hakimiyyət orqanları bunda çox maraqlı olmayacaq.

Britaniya tərəfinin dialoqa başlaya biləcəyi Anqola, Kabo-Verde, Tanzaniya, Toqo, Seneqal və Syerra-Leone kimi Afrika dövlətlərinin ehtiyat siyahısı mövcuddur. Qambiya, Mərakeş, Namibiya və Tunis məsələni müzakirə etməkdən imtina ediblər.

Qəzet xatırladıb ki, Böyük Britaniya artıq bir il yarımdır ki, krallıqdan qovulan qanunsuz miqrantları qəbul etməyə hazır olacaq ölkələr axtarır. Ölkənin baş naziri Rişi Sunak ötən ilin payızında müvafiq sazişlər bağlamağa ümid etsə də, Britaniya Ruandaya bir dənə də olsun qanunsuz miqrant göndərə bilmədiyi üçün danışıqlar dalana dirənib.

### YOXSUL ÖLKƏLƏRLƏ İNKİŞAF ETMİŞ DÖVLƏTLƏR ARASINDA DƏRİN UÇURUM

Dünyanın ən yoxsul 75 ölkəsindən təqribən yarısının gəlirləri ilə inkişaf etmiş dövlətlərin əldə etdiyi gəlir arasında 100 ilin ən böyük fərqi, başqa sözlə desək, dərin uçurum yaranıb. "Röyters" agentliyinin xəbərinə görə, bu barədə Dünya Bankının hesabatında bildirilir.

Məlumata görə, hər iki kateqoriyadan olan ölkələrdə adambaşına düşən gəlirin məbləği də bir-birindən kəskin şəkildə fərqlənir. Dünya Bankının baş iqtisadçısının müavini Ayhan Kösenin sözlərinə görə, bu vəziyyət ilk dəfədir ki, müşahidə olunur.

"COVID-19 pandemiyasına qədərki dövrdə Beynəlxalq İnkişaf Assosiasiyasına üzv olan əksər dövlətlərdə iqtisadi inkişaf tempində azalma müşahidə olunurdu. 2024-cü ilin yekunları onu deməyə əsas verir ki, 4 ili əhatə edən hesabat müddətində bu rəqəm 3,4 faiz təşkil edəcək. Bu, 90-cı illərdən sonra ən aşağı göstərici hesab olunur. Qeyd olunan vəziyyət artıq həyəcan təbilinin çalınmasına əsas verir. Yaranmış iqtisadi problemlərin əsas səbəbi Rusiya-Ukrayna müharibəsidir", - deyə Ayhan Köse əlavə edib.

Eyni zamanda, sənəddə qeyd edilir ki, Beynəlxalq İnkişaf Assosiasiyasından kredit cəlb etmək hüququna 75 dövlətin siyasi sistemində dəyişiklik baş verməsə, onlar beynəlxalq səviyyədə iqtisadi dəstəkdən məhrum ola bilərlər.

### Aİ-nin SAMMİTİNDƏ YAXIN ŞƏRQDƏKİ VƏZİYYƏT MÜZAKİRƏ OLUNACAQ

Avropa İttifaqı (Aİ) ölkələrinin rəhbərliyi aprelin 17-18-də keçiriləcək fövqəladə Aİ sammiti zamanı Yaxın Şərqdəki vəziyyəti müzakirə edəcək. "Trend" agentliyinin məlumatına görə, bu barədə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bildirib.

"Yaxın Şərqdəki, o cümlədən Livandakı vəziyyət Avropa Şurasında müzakirə olunacaq", - deyə o vurğulayıb.

Məlumata əsasən, Şarl Mişel bunu İranın İsrailə zərbələri ilə bağlı "G7"yə sədrlik edən İtaliyanın təşkil etdiyi "G7" liderlərinin videokonfransından sonra bəyan edib.

Ş.Mişelin sözlərinə görə, iclas iştirakçıları İranın İsrailə misli görünməmiş hücumunu yekdilliklə pisləyiblər. "Bütün tərəflər təmkinlik nümayiş etdirməlidirlər, biz gərginliyi azaltmaq üçün bütün səylərimizi davam etdirəcəyik", - deyə Avropa Şurasının rəhbəri qeyd edib.

### ÇEXİYADA GÖY ÖSKÜRƏK XƏSTƏLİYİNƏ REKORD YOLUXMA QEYDƏ ALINIB

Çexiyada ötən həftə rekord sayda (1494) göy öskürək xəstəliyinə yoluxma faktı qeydə alınıb. "TASS" agentliyinin xəbərinə görə, bunu Çexiya Səhiyyə İnstitutunun statistik məlumatları göstərir.

Bildirilir ki, ölkədə son 65 ildəki ən dəhşətli göy öskürək epidemiyası güclənir. Ötən həftə həkimlər tərəfindən müəyyən edilən xəstələrin sayı bütün 2023-cü ildəki yoluxma hallarının sayından iki dəfə çoxdur.

Çexiyada bu ilin yanvar ayından bəri 7888 göy öskürəyə yoluxma faktı təsdiqlənib. Sonuncu dəfə ölkədə bu xəstəliklə bağlı belə həyəcanverici vəziyyət 1959-cu ildə müşahidə olunub, o zaman 18978 sakin xəstəliyə yoluxmuşdu.

Həkimlər ölkə sakinlərinə göy öskürəyə qarşı peyvənd etməyi şiddətlə tövsiyə edir. Lakin hazırda Çexiyada cəmi dörd min ədəd peyvənd var. Onlar ilk növbədə uşaqlar və hamilə qadınlar üçün nəzərdə tutulub. Bu həftə Kanada və Fransadan Çexiyaya 90 min ədəd göy öskürək peyvəndi gətiriləcək.

**Hazırladı:**
**Vamiq ABBASOV,**
**"Respublika".**